**AQTA ilə əməkdaşlıq fəaliyyətləri**

- Dünya Bankı tərəfindən hazırlanan yeni layihə ilə bağlı əməkdaşlıq davam etdirilir.
- 30 aprel və 6 may 2026-cı il tarixlərində Dünya Bankının ekspertləri ilə yeni layihə üzrə prioritetlərin müəyyənləşdirilməsinə dair görüşlər keçirilmişdir.
- Agentliyin mütəxəssisləri Dünya Bankı tərəfindən BMT-nin Ticarət və İnkişaf Konfransı ilə əməkdaşlıq çərçivəsində toplanmış Azərbaycanda qeyri-tarif tədbirlərinə dair məlumatların hazırlanmasında iştirak etmiş və 2026-cı il 4 iyunda keçirilmiş yekun seminarda iştirak etmişdir.
- 2025-ci il 28 yanvar və 19 iyun tarixlərində Dünya Bankının missiyalarının ölkəmizə səfərləri çərçivəsində Agentlikdə görüşlər keçirilmiş, Dünya Bankı tərəfindən hazırlanacaq yeni layihə ilə bağlı Agentlik tərəfindən müəyyən edilmiş ehtiyaclara dair müzakirələr aparılmışdır.
- **“Azərbaycan Kənd Təsərrüfatı Rəqabətliliyin Artırılması” layihəsi**
  Dünya Bankı ilə əməkdaşlıq əsasında 2014-2021-ci illəri əhatə edən “Azərbaycan Kənd Təsərrüfatı Rəqabətliliyin Artırılması” layihəsi uğurla başa çatdırılmışdır. Layihə davam etdiyi müddətdə beynəlxalq ekspertlər də cəlb olunmaqla, milli qida təhlükəsizliyi sisteminin monitorinqi və qiymətləndirilməsi, baytarlıq sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, səmərəli laboratoriya şəbəkəsi üçün texniki-iqtisadi əsaslandırmanın və laboratoriyaların inkişaf strategiyasının hazırlanması, laboratoriyaların beynəlxalq akkreditasiyadan keçirilməsinin təmin olunması, müxtəlif növ məhsullar üçün nümunəgötürmə qaydalarının, protokolların və prosedurların təkmilləşdirilməsi, ziyanvericilərə qarşı mübarizə və risk analizinin gücləndirilməsi, heyvanların identifikasiyası və qeydiyyatı sisteminin proqram təminatının yaradılması ilə bağlı işlər görülmüş və Dünya Bankı tərəfindən bu sahələrdə Agentliyə texniki dəstək göstərilmişdir.
- **“Azərbaycan İnvestisiya Mühiti və Aqrobiznes Rəqabətliliyi” Layihəsi**
  Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlıq çərçivəsində 2019-cu ilin may ayının 8-i “Azərbaycan İnvestisiya Mühiti və Aqrobiznes Rəqabətliliyi Layihəsi” üzrə “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi və Beynəlxalq Maliyyə Korporasiyası arasında Əməkdaşlıq Sazişi" imzalanmışdır. Sazişin müvafiq bəndlərinə uyğun olaraq bir sıra işlər görülmüşdür.